# Dövlət uşaq müəssisələrini tərk etmiş gənclər və onların sosial-psixoloji xüsusiyyətləri

**Süleyman Cavanşir oğlu Süleymanov**
*Azərbaycan Universiteti*
**E-mail:** suleyman-suleymanov-1996@bk.ru

**Rəyçilər:** i.ü.f.d. A.T. Qasımova,
h.ü.e.d., prof. M.N. Əliyev

**Açar sözlər:** valideyn himayəsindən məhrum olma, kimsəsiz gənclər, psixi xüsusiyyətlər, sosial təminat, həyat şəraiti

**Ключевые слова:** без попечения родителей, осиротевшая молодежь, психические особенности, социальное обеспечение, условия жизни

**Key words:** do not be deprived of parental care, orphaned youth, psychological characteristics, social security, life condition

Kimsəsiz və ya valideyn himayəsindən məhrum olmuş gənclər dedikdə, biz müxtəlif səbəblərdən valideynlərini itirmiş, valideynləri vəfat etmiş, valideynləri valideynlik hüququndan məhrum edilmiş və s. şəxsləri nəzərdə tuturuq. Bildiyimiz kimi, heç bir hadisə özü-özünə baş vermir, buna daim stimullaşdırıcı hallar və hadisələr gətirib çıxarır. Məsələn, əgər bir uşaq valideynsiz qalırsa, deməli burada bir sıra əlamətlər və hadisələr toplusu iştirak edib (3) Valideyn vəfat edə bilər və ya valideynlik hüququ əlindən alına bilər (1). Təbii ki, bütün hadisələr bir-birinə təsir göstərir, bir proses digəri üçün əsas olur. Əgər valideyn içkidən həddindən çox istifadə edirsə, bu, onun zorakılıq yaratmasına, məişət problemlərinin olmasına gətirib çıxarma ehtimalını çoxaldır. Nəticədə isə o, valideynlik hüququndan məhrum ola və uşağı kimsəsiz qoya bilər.

Nəzərə alsaq ki, şəxslərin uşaqlıq dövründə valideyn himayəsindən məhrum olma riski daha çox və daha tez rast gəlinəndir, belə nəticəyə gəlmək olar ki, gənclərin valideynsiz olması uşaqlıq dövrlərindən irəli gəlir. Bildiyimiz kimi, uşaqlıq dövründə uşaqların psixikası çox həssas və tez reaksiya verən olur. Təbii olaraq, valideynlərin olmaması, hətta olmama səbəblərinin çox ağır olması (ölüm, narkomaniya, zorakılıq və s.) uşaqda müxtəlif psixi və emosional izlər qoyur. İnsan böyüdükcə isə həmin izlər mutasiya edib digər çətinliklərə gətirib çıxarır (2).

Dediyimiz kimi valideyn himayəsindən məhrum olan uşaqların valideynləri müxtəlif səbəblərdən bu hüquqdan məhrum olunur və ya təbii proseslər zamanı uşaq valideynlərini və ya valideyninin birini itirir (8).

Valideyinlərini itirmiş uşaq hər iki valideyni olmayan 18 yaşınadək olan insanlardır. Valideyn himayəsindən məhrum olmuş uşaqlar - hər iki valideyni:

- Məlum olmayan;
- Valideynlik hüququndan məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;
- Xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;
- Cəzaçəkmə müəssisələrində cəzasını çəkən;
- Uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən

imtina edən;

- Uşaqlarını tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən götürməkdən imtina edən;
- Qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən 18 yaşınadək şəxslərdir.
- Bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlilliyi olan 18 yaşınadək şəxslər də valideyn himayəsindən məhrum olmuş uşaqlar hesab edilirlər (7).

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən "Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Bu onu bildirir ki, uşağın böyüməsində, təhsilində, ehtiyaclarının qarşılamasında hər iki valideyn rol oynayır. Bu, həm qanuna əsasən belədir, həm də cəmiyyətimizdə mövcud olan ənənəvi ailə obrazına uyğun gəlir. İstənilən ölkədə, millətdə, dində, irqdə bu qayda dəyişmir. Dəyişə bilən tərbiyə metodlarıdır, lakin sxem eyni formatda qalır (9).

Uşaq psixologiyası, psixiatriyası, o cümlədən pedaqogika sahəsində aparılmış çoxsaylı tədqiqatlara əsasən demək olar ki, uşağın böyüməsinin hər bir mərhələsində ailə və valideyn iştirak edir və iştirakı vacibdir. Psixoloji tədqiqatlar insan inkişafını bir çox mərhələyə bölür. Bu mərhələlər isə özündə hər yaşın psixoloji aspektlərini və prioritetlərini müəyyənləşdirir.

Bütün bunlar vacib və problemin dərk edilməsində əsas olan biliklərdir, hansıki uşaqların valideyn himayəsindən məhrum olmasından sonra yarana biləcək problemləri göstərir. İnkişaf prosesi özündə, çoxmərhələli, sistematik, ardıcıl fəaliyyətlərin toplusudur. Əgər bu zəncirvari prosesdə hansısa bir dövr problemli olsa və ya ümumiyyətlə baş verməsə, daha doğrusu, baş verməsi üçün elementlər (ata, ana) olmasa bu uşağın inkişafını ləngidə və hətta inkişafı tamamilə digər yönə apara bilər. Hansıki əksər halda gələcəkdə şəxs üçün ciddi problemlər və çatışmazlıqlar yaradır. Bu isə özünəinamın aşağı olması, cəmiyyətdən kənarlaşma hallarının olması, insanlar tərəfindən qəbul olunmama kimi vəziyyətlərə gətirə bilir (6). Beləliklə, hər bir göstərilən faktlar əvvəl danışdığımız məsələlərin düzgünlüyünü göstərir. Yəni, bir hadisə digərini yaradır və adətən həmin hadisədə onu yaradan hadisə xarakterli olur. Mənfi olsa mənfi, müsbət olsa müsbət. Valideyn olmasa uşaq travma alır, travma olduqda psixika pozulur və düzgün inkişaf anomaliya ilə əvəz olunur, daha sonra isə bu mənfi psixika digər deviant tipli davranışları etməyə stimul verir (4). Və adətən cəmiyyətdə bu prosesə katalizator kimi təsir edib olan vəziyyəti daha da çətinləşdirir və çıxılmaz situasiyaya aparır. Lakin cəmiyyət özü böyük quvvədi və valideyni olmayan uşağı kənarlaşdırmaq yerinə dəstək olsa onu həmin vəziyyətdən çıxara bilər. Bir çox zaman cəmiyyət sosial normalar və ya digərlərinin yanında yaxşı obrazı yaratmaq üçün belə uşaqlara dəstək olur lakin valideynini itirmiş uşağa maddi və ya uzaqdan olan dəstəkdən çox real və təmiz emosional dəstək vacibdir. Müxtəlif təşkilatlar var ki bir çox problemi olan və eləcədə valideynlərini itirmiş uşaqlara və gənclərə dəstək olur, onları birləşdirir və beləliklə özləri-özlərinə inkişaf üçün əsas yaradırlar.

Faktiki olaraq kimsəsiz gənclərin sosial şəraitinin təmin edilməsi və bu təminatın beynəlxalq standartlara uyğun olması məsələsi aktualdır. Bir çox digər aspektlərdən baxdıqda, valideyn himayəsindən məhrum olmuş gənclər cəmiyyətin həssas təbəqəsi hesab edilir və bu təbəqənin xüsusi ehtiyacları vardır. Bu ehtiyacların "xüsusi" olması təsadüfi deyil. Normal ailə şəraitində böyümüş və cəmiyyətə inteqrasiya olunmuş uşaqla, kimsəsiz olan uşaq böyüdükdə fərqli psixi struktura malik olurlar. Bu səbəblərdən isə "xüsusi" ehtiyaclar yaranır (5).

**Məqalənin aktuallığı.** Günümüzdə baş verən problemlərin və hadisələrin müxtəlif səbəbləri olur. Kimsəsiz uşaqların və gənclərin, ölkədə bir çox problemləri olur və dövlət tərəfindən bir çox tədbirlər görülür. Bu tədbirlərin əsas hədəfi və məqsədi, valideyn himayəsindən məh-

rum olmuş şəxslərin sosial, maddi və psixoloji bazasının gücləndirilməsi və bu sahədə dəqiq və ardıcıl işlərin görülməsidir. Hər nə qədər işlər görülsə də ideal sistemin mövcud olma ehtimalı çox aşağıdır və ölkədə müəyyən boşluqlar var ki, onların doldurulması əsas məsələlərdən biri olmalıdır. Əks halda sosial inkişaf ləngiyər və xüsusən də kimsəsiz gənclərin və uşaqların adaptasiyası və cəmiyyətə inteqrasiyası çətinləşər.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik dövlət uşaq müəssisələrini tərk etmiş gənclərdir və onların sosial-psixoloji vəziyyətlərinin öyrənilməsidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları, eləcə də praktik psixoloq və sosioloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Астапов Ю.В. М.: Институт практической психологии. 1996.
2. Андреева Г.М. Социальная психология. М.: Аспект Пресс, 2008.
3. Обучение и воспитание детей «группы риска»: хрестоматия / сост. В.М. Стародубцева, И.В. Некоторые итоги исследования корреляционной зависимости показателей интеллектуального и двигательного развития старших дошкольников // Физическая культура: воспитание, образование, тренировка, 2008.
4. Энциклопедии психодиагностики. Психодиагностики детей. Том 1 / под ред. Д.Я. Райгородского. Самара: Бахра Х-М, 2012.
5. Kubitsky S.O. The history of social work in foreign countries: a tutorial. K. DAKKKiM, 2009.
6. Socially-educational technologies of family structure and upbringing of orphans and children left without parental care: a tutorial. / Edited by G.I. Klimantova. Moscow: Publishing House of the RSSU 2008
7. http://www.e-qanun.az/alpidata/framework/data/3/f_3859.htm
8. http://www.e-qanun.az/framework/3292
9. http://www.e-qanun.az/framework/3859

**С.Дж. Сулейманов**

## Молодые люди, покинувшие государственные учреждения, и их социально-психологические особенности

## Резюме

С учетом всех процессов формируется необходимая инфраструктура для обеспечения нормальных условий жизни молодежи-сироты. Однако эти разработки и инновации должны сопровождаться изменениями, адаптированными к новшествам, научно-техническому прогрессу. Социально-структурные системы, которые существуют сегодня и приняты многими странами, расположены в Европе и Америке. Но на протяжении всей истории происходило обратное. Это означает, что Восток впереди, и существует необходимость в правильной и адаптивной схеме развития.

**S.Dj. Suleymanov**

## Young people who have left public institutions and their socio-psychological characteristics


### Summary

Taking into account all the processes, the necessary infrastructure is being formed to ensure the normal living conditions of orphaned youth. However, these developments and innovations must be accompanied by changes adapted to innovative, scientific and technical progress. The social structural systems that exist today and are accepted by many countries are located in Europe and America. But throughout history, the opposite has been the case. This means that the East is ahead and that there is a need for a proper and adaptive scheme for development.


**Redaksiyaya daxil olub:** 12.05.2020